| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 09.12.1999 |
| QEYDİYYAT NÖMRƏSİ | 224 |
| ADI | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyasının tərkibi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-12-1999, Nəşr nömrəsi: 12, Maddə nömrəsi: 704) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 010.000.000<br>350.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyasının tərkibi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 17 yanvar tarixli 539 nömrəli Fərmanı ilə yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın fəaliyyətini təşkil etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın aşağıdakı tərkibi təsdiq edilsin:[1]

***Komissiyanın sədri***[2]

*Azərbaycan Respublikası Baş nazirinin birinci müavini*

***Komissiyanın üzvləri***

*Azərbaycan Respublikasının müdafiə naziri*
*Azərbaycan Respublikasının ədliyyə naziri*
*Azərbaycan Respublikasının xarici işlər naziri*
*Azərbaycan Respublikasının iqtisadiyyat naziri*
*Azərbaycan Respublikasının maliyyə naziri*
*Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri*
*Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri*
*Azərbaycan Respublikasının daxili işlər naziri*
*Azərbaycan Respublikasının müdafiə sənayesi naziri*
*Azərbaycan Respublikasının fövqəladə hallar naziri*[3]
*Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi*
*Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi*
*Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi*
*Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi*
*Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti*
*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti*

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 9 dekabr 1999-cu il
224

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında**

**ƏSASNAMƏ**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya (bundan sonra — İdarələrarası Komissiya) Azərbaycan Respublikası Prezidentinin «Dövlət sirri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 1997-ci il 17 yanvar tarixli 539 nömrəli Fərmanı ilə yaradılmışdır.

2. İdarələrarası Komissiya dövlət sirri haqqında Azərbaycan Respublikası qanunvericiliyinin həyata keçirilməsini təmin edən, dövlət proqramlarının, normativ hüquqi aktlarının və metodik sənədlərinin işlənib hazırlanması və yerinə yetirilməsi naminə dövlət sirrinin mühafizəsi sahəsində dövlət hakimiyyəti orqanlarının fəaliyyətini əlaqələndirən kollegial orqandır.

3. İdarələrarası Komissiyanın əsas vəzifəsi dövlət sirrinin mühafizəsini Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona həvalə olunmuş funksiyalara müvafiq təşkil və təmin etməkdən ibarətdir.

4. İdarələrarası Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

5. İdarələrarası Komissiya öz vəzifəsini yerinə yetirmək üçün aşağıdakı funksiyaları həyata keçirir:

dövlət sirri təşkil edən məlumatların qeyri-qanuni yayılması bütövlükdə Azərbaycan Respublikası və ya mərkəzi icra hakimiyyəti orqanı üzrə dövlətin təhlükəsizliyinə ziyan vurulmaqla nəticələndiyi hallarda məlumatların yayılması faktı üzrə materiallara baxır və rəy verir;[4]

qanunla müəyyən olunmuş dövlət sirri təşkil edən məlumatlar siyahısına və məlumatların dövlət sirrinə aid edilməsi və məxfiləşdirilməsi prinsipinə uyğun olaraq, habelə dövlət hakimiyyəti orqanlarının təklifləri nəzərə alınmaqla, dövlət sirrinə aid edilən məlumatların siyahısını tərtib edir və təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə

təqdim edir;[5]

«Dövlət sirri haqqında» Azərbaycan Respublikası Qanununun həyata keçirilməsini təmin edən dövlət proqramlarını, normativ hüquqi və metodiki sənədləri işləyib hazırlayır və ya müəyyən edilmiş qaydada təsdiq edilmək üçün müvafiq icra hakimiyyəti orqanlarına təqdim edir;

Azərbaycan Respublikasında dövlət sirrinin mühafizəsi sisteminin təkmilləşdirilməsi və hüquqi tənzimlənməsi barədə təklifləri Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir;

fondyaradıcı təşkilat ləğv edildikdə və onun hüquqi varisi olmadıqda, dövlət sirri təşkil edən məlumat daşıyıcılarının məxfiliyinin açılması qaydasına dair qərarı qəbul edir;[6]

dövlət hakimiyyəti orqanlarının, müəssisə, idarə, təşkilatların və vətəndaşların dövlət sirrinə aid edilmiş məlumatların məxfiliyinin açılması haqqında sorğularına «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada baxır;[7]

dövlət sirri təşkil edən məlumatların digər dövlətlərə və beynəlxalq təşkilatlara verilməsinin mümkünlüyü haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinə ekspert rəyi verir;[8]

«Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş hallarda dövlət sirri təşkil edən məlumat daşıyıcılarını başqa dövlət hakimiyyət orqanı, müəssisə, idarə və ya təşkilatına verilməsi barədə göstəriş verir;[9]

hərbi və fövqəladə vəziyyət şəraitində vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri ilə işləməyə buraxılması qaydasının dəyişdirilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə təkliflər verir;

Azərbaycan Respublikası Prezidentinin göstərişinə əsasən dövlət sirri təşkil edən məlumatların birgə mühafizəsi və istifadəsi haqqında Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin layihələrinə baxır, müvafiq təkliflər və ekspert rəyləri hazırlayır və bu məsələlərlə bağlı beynəlxalq təşkilatlarla əməkdaşlıq edir;

dövlət hakimiyyəti orqanlarında, müəssisə, idarə və təşkilatlarda qüvvədə olan məxfiləşdirilməli məlumat siyahılarının dəyişdirilməsinə dair qərarlara (bu qərarlar dövlət sirrinə aid edilən məlumatlar siyahısına dəyişiklik edilməsi ilə bağlı olduqda) razılıq verir, bu qərarları dayandırır və onlara etiraz edir;**[10]**

dövlət sirrini təşkil edən məlumatların məxfilik müddətinin uzadılması məsələsinə dair rəy verir; **[11]**

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll edir.

6. İdarələrarası Komissiyaya sədr başçılıq edir. İdarələrarası Komissiyanın sədri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin və azad edilir.

İdarələrarası Komissiyanın tərkibini Azərbaycan Respublikasının Prezidenti təsdiq edir.

*7. İdarələrarası Komissiyanın fəaliyyətinin təmin edilməsi üçün İdarələrarası Komissiyanın Katibliyi (bundan sonra - Katiblik) yaradılır.***[12]**

*Katiblik İdarələrarası Komissiyanın Aparatı funksiyasını həyata keçirən dövlət orqanıdır və onun işçiləri dövlət qulluqçularıdır.***[13]**

*Katibliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikasının dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.*

*Katiblik:*

*İdarələrarası Komissiyanın qərarlarının icrasına nəzarət edir;*

*dövlət sirri haqqında qanunvericiliyin həyata keçirilməsi sahəsində dövlət qurumlarının fəaliyyətini əlaqələndirir;*

*Azərbaycan Respublikasının Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin İdarələrarası Komissiyaya verdikləri tapşırıqların icrasını təmin edir;*

*dövlət sirrinin mühafizəsi sisteminin təkmilləşdirilməsi məqsədi ilə dövlət sirri haqqında qanunvericiliyin yerinə yetirilməsi sahəsində dövlət qurumlarının fəaliyyətini öyrənir;*

*dövlət sirrinin mühafizəsi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi məqsədi ilə müvafiq təşkilatlarla əməkdaşlıq edir;*

*dövlət sirrinin mühafizəsi ilə bağlı məsələlərin həll edilməsi məqsədi ilə idarələrarası işçi və ekspert qruplarının yaradılmasına, habelə ayrı-ayrı təşkilatların, o cümlədən mütəxəssislərin işə cəlb edilməsinə dair təkliflər hazırlayır və baxılmaq üçün İdarələrarası Komissiyaya təqdim edir;*

*İdarələrarası Komissiyanın fəaliyyətinin təmin edilməsi ilə bağlı İdarələrarası Komissiyanın ona həvalə etdiyi digər funksiyaları həyata keçirir.*

8. İdarələrarası Komissiyanın sədri:

müəyyən olunmuş qaydada mərkəzi icra hakimiyyəti orqanlarından, yerli özünüidarəetmə orqanlarından, müəssisə, idarə və təşkilatlardan İdarələrarası Komissiyanın fəaliyyəti ilə bağlı zəruri məlumatları, sənədləri və materialları ala bilər;

İdarələrarası Komissiyanın fəaliyyətini təmin edən idarələrarası ekspert qrupları yaradır;

müqavilə əsasında dövlət və qeyri-dövlət müəssisə, idarə və təşkilatları və ayrı-ayrı mütəxəssisləri ekspert, tədqiqat və analitik işlərin aparılması üçün cəlb edir;

Azərbaycan Respublikası Prezidentinin razılığı ilə *Katibliyin* rəhbərini vəzifəyə təyin və vəzifədən azad edir, işçi qrupu rəhbərinin təqdimatı əsasında işçi qrupunun işçilərini qəbul və azad edir.**[14]**

9. İdarələrarası Komissiyanın iclasları İdarələrarası Komissiyanın sədri tərəfindən təsdiq olunmuş plan əsasında keçirilir. Zəruri hallarda İdarələrarası Komissiya sədrinin təşəbbüsünə əsasən növbədənkənar iclaslar keçirilə bilər.

İdarələrarası Komissiyanın iclaslarında Komissiya üzvlərinin iştirakı vacibdir. Onlar öz səlahiyyətlərini başqa vəzifəli şəxslərə verə bilməzlər. İdarələrarası Komissiyanın üzvünün iclasda iştirak etməsi mümkün olmadıqda müzakirə edilən məsələlər barədə onun fikri yazılı surətdə təqdim olunur.

10. İdarələrarası Komissiyanın öz səlahiyyətləri daxilində qəbul etdiyi qərarlarının icrası dövlət hakimiyyəti orqanları,

müəssisə, idarə və təşkilatlar, vəzifəli şəxslər üçün məcburidir.

11. İdarələrarası Komissiyanın üzvləri qərar qəbul edilməsində eyni hüquqlara malikdirlər.

İdarələrarası Komissiyanın hər hansı bir üzvü qəbul edilən qərarla razı olmadıqda onun xüsusi rəyi mütləq iclas protokoluna əlavə edilir.

12. İdarələrarası Komissiyanın üzvləri ictimai əsaslar əsasında fəaliyyət göstərirlər.

13. İdarələrarası Komissiyanın və *Katibliyinin* maddi-texniki təchizatı dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirilir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 15 yanvar 2002-ci il tarixli 639 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 1, maddə 22**)
2. 25 iyun 2004-cü il tarixli 79 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 6, maddə 436**)
3. 28 iyul 2004-cü il tarixli **95** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 7, maddə 534**)
4. 10 oktyabr 2005-ci il tarixli **301** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (“**Azərbaycan” qəzeti, 25 oktyabr 2005-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 10, maddə 910** )
5. 3 iyul 2006-cı il tarixli **424** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 588**)
6. 12 mart 2007-ci il tarixli **550** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 3, maddə 229**)
7. 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027)**
8. 29 sentyabr 2015-ci il tarixli **628** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 30 sentyabr 2015-ci il, 211, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 9, maddə 1015)**
9. 1 noyabr 2015-ci il tarixli **671** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 11, maddə 1301)**
10. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )
11. 8 may 2017-ci il tarixli **1368** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 14 may 2017-ci il, 102 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 772)**
12. 7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521)**
13. 5 fevral 2018-ci il tarixli **1811** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 6 fevral 2018-ci il, 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 175)**
14. 2 sentyabr 2019-cu il tarixli **828** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 3 sentyabr 2019-cu il, 192 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 9, maddə 1487)**
15. 27 fevral 2020-ci il tarixli **947** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 28 fevral 2020-ci il, 45, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 2, maddə 105)**
16. 5 aprel 2022-ci il tarixli **1642** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 6 aprel 2022-ci il, 69** )

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 28 iyul 2004-cü il tarixli 95 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 7, maddə 534**) ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibindən **Namiq Abbasov** çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~Namiq Abbasov~~ ~~- Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri~~

3 iyul 2006-cı il tarixli 424 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 588**) ilə 2-ci bəndində “Əvəz Ələkbərov - Azərbaycan Respublikasının maliyyə naziri” sözləri “Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri” sözləri ilə əvəz edilmişdir.

25 iyun 2004-cü il tarixli 79 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 6, maddə 436**) ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibindən **Vilayət Quliyev** çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~Vilayət Quliyev~~ ~~- Azərbaycan Respublikasının xarici işlər naziri~~

15 yanvar 2002-ci il tarixli 639 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 1, maddə 22**) ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibindən **Namiq Nəsrullayev** çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~Namiq Nəsrullayev~~ ~~-Azərbaycan Respublikasının iqtisadiyyat naziri~~

25 iyun 2004-cü il tarixli 79 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 6, maddə 436**) ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibindən **Nadir Əhmədov** çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~Nadir Əhmədov~~ ~~-Azərbaycan Respublikasının rabitə naziri~~

15 yanvar 2002-ci il tarixli 639 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 1, maddə 22**) ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibindən **Siruz Təbrizli, Südabə Həsənova, Azad Mirzəcanzadə, Surxay Tağıyev, Adil Sultanov** çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

| | |
|---|---|
| ~~Siruz Təbrizli~~ | ~~-Azərbaycan Respublikasının mətbuat və informasiya naziri~~ |
| ~~Südabə Həsənova~~ | ~~-Azərbaycan Respublikasının ədliyyə naziri~~ |
| ~~Azad Mirzəcanzadə~~ | ~~-Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsinin sədri~~ |
| ~~Surxay Tağıyev~~ | ~~-Azərbaycan Respublikası Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi sədrinin müavini~~ |
| ~~Adil Sultanov~~ | ~~-Azərbaycan Respublikası Dövlət Geodeziya və Xəritəçəkmə Komitəsinin sədri~~ |

25 iyun 2004-cü il tarixli 79 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 6, maddə 436**) ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibindən **Elman Qənbərov** çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~Elman Qənbərov~~ ~~-Azərbaycan Respublikası Hərbi Əks-Kəşfiyyat Xidmətinin rəisi~~

15 yanvar 2002-ci il tarixli 639 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 1, maddə 22**) ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibinə aşağıdakı şəxslər daxil edilmişdir:

| | |
|---|---|
| Hüseynqulu **Bağırov** | - Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri |
| Fərhad **Əliyev** | - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri |
| Fikrət **Məmmədov** | - Azərbaycan Respublikasının ədliyyə naziri |
| Qərib **Məmmədov** | - Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri |
| Arif **Vəliyev** | - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri |
| Mahmud **Kərimov** | - Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti |

25 iyun 2004-cü il tarixli 79 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 6, maddə 436**) ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibinə aşağıdakı şəxslər daxil edilmişdir:

| | |
|---|---|
| Əli **Abbasov** | - Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri |
| Elmar **Məmmədyarov** | - Azərbaycan Respublikasının xarici işlər naziri |

28 iyul 2004-cü il tarixli 95 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 7, maddə 534**) ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibinə Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri **Eldar Mahmudov** daxil edilmişdir.

29 sentyabr 2015-ci il tarixli **628** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 30 sentyabr 2015-ci il, 211, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 9, maddə 1015**) ilə 2-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~**Komissiyanın sədri:**~~

~~Yaqub **Eyyubov**~~ ~~-Azərbaycan Respublikası Baş nazirinin müavini~~

~~**Komissiyanın üzvləri:**~~

| | |
|---|---|
| ~~(Çıxarılıb)~~ | - |
| ~~Səfər **Əbiyev**~~ | ~~-Azərbaycan Respublikasının müdafiə naziri~~ |
| ~~Samir **Şərifov**~~ | ~~-Azərbaycan Respublikasının maliyyə naziri~~[1] |
| ~~(Çıxarılıb)~~ | - |
| ~~(Çıxarılıb)~~ | - |
| ~~(Çıxarılıb)~~ | - |
| ~~(Çıxarılıb)~~ | - |
| ~~Fərəməz **Maqsudov**~~ | ~~-Azərbaycan Respublikası Elmlər Akademiyasının prezidenti~~ |
| ~~Natiq **Əliyev**~~ | ~~-Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti~~ |
| ~~(Çıxarılıb)~~ | - |
| ~~Hüseynqulu **Bağırov**~~ | ~~-Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri~~ |
| ~~Fərhad **Əliyev**~~ | ~~-Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri~~ |
| ~~Fikrət **Məmmədov**~~ | ~~-Azərbaycan Respublikasının ədliyyə naziri~~ |
| ~~Qərib **Məmmədov**~~ | ~~-Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri~~ |
| ~~Arif **Vəliyev**~~ | ~~-Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri~~ |
| ~~Mahmud **Kərimov**~~ | ~~-Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti~~ |
| ~~Əli **Abbasov**~~ | ~~-Azərbaycan Respublikasının *rabitə və yüksək texnologiyalar naziri*~~ |
| ~~Elmar **Məmmədyarov**~~ | ~~-Azərbaycan Respublikasının xarici işlər naziri~~ |
| ~~Eldar **Mahmudov**~~ | ~~Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri~~ |

1 noyabr 2015-ci il tarixli **671** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,**

**2015-ci il, 11, maddə 1301**) ilə 2-ci hissəsində "**Eldar Mahmudov – Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri** " sözləri "**Mədət Quliyev – Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin birinci müavini**" sözləri ilə əvəz edilmişdir.

8 may 2017-ci il tarixli **1368** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 14 may 2017-ci il, 102, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 772**) ilə 2-ci hissəsində "**milli təhlükəsizlik nazirinin birinci müavini**" sözləri "**Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi**" sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 2-ci hissədən "**və sənaye**" sözləri çıxarılmışdır.

7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il, 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521**) ilə 2-ci hissədə "**Əli Abbasov - Azərbaycan Respublikasının rabitə və yüksək texnologiyalar naziri**" sözləri "**Ramin Quluzadə - Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri** " sözləri ilə əvəz edilmişdir.

8 may 2017-ci il tarixli **1368** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 14 may 2017-ci il, 102, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 772**) ilə 2-ci hissəsinə "**Azərbaycan Respublikasının müdafiə sənayesi naziri**" sözlərindən sonra yeni məzmunda yeni abzas əlavə edilmişdir.

[2] 2 sentyabr 2019-cu il tarixli **828** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 3 sentyabr 2019-cu il, 192, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 9, maddə 1487** ) ilə 2-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~***Komissiyanın sədri***~~

-

| | |
|---|---|
| ~~*Yaqub **Eyyubov***~~ | ~~*Azərbaycan Respublikası Baş nazirinin birinci müavini.*~~ |

-

~~***Komissiyanın üzvləri:***~~

-

| | |
|---|---|
| ~~*Mədət **Quliyev***~~ | ~~*Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi*~~ |
| ~~*Zakir **Həsənov***~~ | ~~*Azərbaycan Respublikasının müdafiə naziri*~~ |
| ~~*Fikrət **Məmmədov***~~ | ~~*Azərbaycan Respublikasının ədliyyə naziri*~~ |
| ~~*Elmar **Məmmədyarov***~~ | ~~*Azərbaycan Respublikasının xarici işlər naziri*~~ |
| ~~*Şahin **Mustafayev***~~ | ~~*Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye naziri*~~ |
| ~~*Samir **Şərifov***~~ | ~~*Azərbaycan Respublikasının maliyyə naziri*~~ |
| ~~*Ramin **Quluzadə***~~ | ~~*Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri*~~ |
| ~~*Hüseynqulu **Bağırov***~~ | ~~*Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri*~~ |
| ~~*Ramil **Usubov***~~ | ~~*Azərbaycan Respublikasının daxili işlər naziri*~~ |
| ~~*Yavər **Camalov***~~ | ~~*Azərbaycan Respublikasının müdafiə sənayesi naziri*~~ |
| ~~*Orxan **Sultanov***~~ | ~~*Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi*~~ |
| ~~*Vaqif **Axundov***~~ | ~~*Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi*~~ |
| ~~*Elçin **Quliyev***~~ | ~~*Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi*~~ |
| ~~*Akif **Əlizadə***~~ | ~~*Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti*~~ |
| ~~*Rövnəq **Abdullayev***~~ | ~~*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti.*~~ |

[3] 27 fevral 2020-ci il tarixli **947** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 28 fevral 2020-ci il, 45, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 2, maddə 105**) ilə 2-ci hissəyə "**Azərbaycan Respublikasının müdafiə sənayesi naziri**" abzasından sonra yeni məzmunda abzas əlavə edilmişdir.

[4] 10 oktyabr 2005-ci il tarixli **301** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("**Azərbaycan" qəzeti, 25 oktyabr 2005-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 10, maddə 910** ) ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamə"nin 5-ci bəndinin ikinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~dövlət sirri təşkil edən məlumatların yayılması nəticəsində Azərbaycan Respublikasının təhlükəsizliyinə vurula bilən zərərin miqdarının müəyyənləşdirilməsi qaydasına və göstərilən məlumatların bu və ya başqa məxfilik dərəcəsinə aid edilməsi qaydalarına dair təkliflərini hazırlayır və təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;~~

[5] 10 oktyabr 2005-ci il tarixli **301** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("**Azərbaycan" qəzeti, 25 oktyabr 2005-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 10, maddə 910** ) ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamə"nin 5-ci bəndinin üçüncü abzasında "**dövlət sirrinə aid edilən məlumatların və həmin məlumatlar barəsində sərəncam vermək səlahiyyətinə malik olan dövlət hakimiyyət orqanlarının**" sözləri "**qanunla müəyyən olunmuş dövlət sirri təşkil edən məlumatlar siyahısına və məlumatların dövlət sirrinə aid edilməsi və məxfiləşdirilməsi prinsipinə uyğun olaraq, habelə dövlət hakimiyyəti orqanlarının təklifləri nəzərə alınmaqla, dövlət sirrinə aid edilən məlumatların**" sözləri ilə əvəz edilmişdir.

[6] 10 oktyabr 2005-ci il tarixli **301** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("**Azərbaycan" qəzeti, 25 oktyabr 2005-ci il,**

**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 10, maddə 910 )** ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamə"nin 5-ci bəndinin altıncı abzasında "**qaydası haqqında məsələyə baxır**" sözləri "**qaydasına dair qərarı qəbul edir**" sözləri ilə əvəz edilmişdir.

[7] 10 oktyabr 2005-ci il tarixli **301** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("**Azərbaycan" qəzeti, 25 oktyabr 2005-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 10, maddə 910 )** ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamə"nin 5-ci bəndinin yeddinci abzasında "**mərkəzi icra**" sözləri "**dövlət**" sözü ilə əvəz edilmişdir.

[8] 10 oktyabr 2005-ci il tarixli **301** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("**Azərbaycan" qəzeti, 25 oktyabr 2005-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 10, maddə 910 )** ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamə"nin 5-ci bəndinin səkkizinci abzası yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

~~dövlət sirri təşkil edən məlumatların digər dövlətlərə verilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarının verilməsi mümkünlüyü haqqında ekspert rəyi verir;~~

-

12 mart 2007-ci il tarixli **550** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 3, maddə 229**) ilə 5-ci bəndinin səkkizinci abzasında "**dövlətlərə**" sözü "**dövlətlərə və beynəlxalq təşkilatlara**" sözləri ilə əvəz edilmişdir.

-

[9] 10 oktyabr 2005-ci il tarixli **301** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("**Azərbaycan" qəzeti, 25 oktyabr 2005-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 10, maddə 910 )** ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamə"nin 5-ci bəndinin doqquzuncu və onuncu abzasları çıxarılmışdır. Bəndin əvvəlki on birinci - on dördüncü abzasları müvafiq olaraq doqquzuncu - on ikinci abzaslar hesab edilmişdir. Doqquzuncu və onuncu abzasların əvvəlki redaksiyasında deyilirdi:

~~dövlət sirrini təşkil edən məlumatların yayılması nəticəsində Azərbaycan Respublikasının təhlükəsizliyinə vurula bilən zərərin miqdarının müəyyənləşdirilməsi qaydası barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;~~

~~dövlət sirrini təşkil edən məlumatların məxfilik dərəcəsinə aid edilməsi qaydasını hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;~~

[10] 10 oktyabr 2005-ci il tarixli **301** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("**Azərbaycan" qəzeti, 25 oktyabr 2005-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 10, maddə 910 )** ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamə"nin 5-ci bəndinin on ikinci abzasına "**qərarlara**" sözündən sonra "(**bu qərarlar dövlət sirrinə aid edilən məlumatlar siyahısına dəyişiklik edilməsi ilə bağlı olduqda**)" sözləri əlavə edilmişdir.

[11] 10 oktyabr 2005-ci il tarixli **301** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("**Azərbaycan" qəzeti, 25 oktyabr 2005-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 10, maddə 910 )** ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamə"nin 5-ci bəndinin on beşinci abzası çıxarılmışdır. Bəndin əvvəlki on altıncı və on yeddinci abzasları müvafiq olaraq on üçüncü və on dördüncü abzaslar hesab edilmişdir. On beşinci abzasın əvvəlki redaksiyasında deyilirdi:

-

~~məlumatın mühafizə vasitələrinin sertifikasiyası işlərini əlaqələndirir;~~

-

[12] 5 fevral 2018-ci il tarixli **1811** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 6 fevral 2018-ci il, 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 175)** ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamə"nin 7-ci hissəsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~7. İdarələrarası Komissiyanın fəaliyyətinin təmin edilməsi üçün onun nəzdində işçi qrupu yaradılır.~~

[13] 5 aprel 2022-ci il tarixli **1642** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 6 aprel 2022-ci il, 69)** ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamə"nin 7-ci hissəsinin ikinci abzasına "**Katiblik**" sözündən sonra "**İdarələrarası Komissiyanın Aparatı funksiyasını həyata keçirən**" sözləri əlavə edilmişdir.

[14] 5 fevral 2018-ci il tarixli **1811** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 6 fevral 2018-ci il, 27, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 175)** ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamə"nin 8-ci hissənin beşinci abzasında və 13-cü hissədə ismin müvafiq hallarında "**işçi qrupu**" sözləri ismin müvafiq hallarında "**Katiblik**" sözü ilə əvəz edilmişdir.